## Deloitte Akademiyası təlimləri:

1. **Korporativ idarəetmə, 7-8 iyun, Praktiki təlim**

   "Korporativ idarəetmə" mövzusu ilə maraqlananlar üçün hazırda dinamik dövrdür. Son onillikdə baş verən hadisələr idarə heyətinin rolu, rəhbər işçilərin mükafatlandırılması, strateji nəzarət və sair kimi idarəetmənin müxtəlif aspektlərinə yönəlmiş mövzularda bir sıra məqalə və analitik hesabatların nəşri ilə nəticələnmişdir. Buna baxmayaraq, bir çox müəssisələrdə direktorlar şurası aşağıdakılar daxil olmaqla bəzi əsas suallara hələ də cavab tapa bilməyiblər:

   - Şirkətin korporativ idarəetmə proqramında idarə heyətinin rolu nədən ibarətdir?
   - Nəzarətin srategiya və risk kimi mühüm sahələrində məhz hansı fəaliyyətləri yerinə yetirməliyik?

   Belə məsələlərin həllini asanlaşdırmaq üçün nəzərdə tutulmuş Deloitte Akademiyası korporativ idarəetmə haqqında geniş təfərrüatlı təlim proqramı təklif edir. Təlim effektivlik və səmərəliliyi artırmaq məqsədilə potensial imkanların tez bir zamanda müəyyən edilməsində idarə heyəti və rəhbərlərə yardımçı olan alətləri formalaşdırmaq məqsədi daşıyır.

   Qeydiyyat üçün sorğularınızı **academy@deloitte.az** ünvanına göndərin

   Link: https://www2.deloitte.com/az/az/pages/deloitte-academy/articles/korporativ-idar_etm.html

2. **Maliyyə Modelləşdirməsi, 27 - 29 iyun 2023, Praktiki təlim**

   "Deloitte" Excel-də yüksək keyfiyyətli, möhkəm modellər yaratmaq barədə bilməli olduğunuz hər şeyi əhatə edən kompleks təlim kursu təklif edir. Biz sizə ən yaxşı təcrübə prinsiplərindən dərin metodoloji təcrübəyə qədər maliyyə və iqtisadi modelləşdirməyə yiyələnməyiniz üçün tələb olunan təlimi təqdim edə bilərik.

   Kursun təlimçisi Maliyyə Məsləhət Xidmətləri departamentinin Baş meneceri Cavid Həsənzadədir. Cavid bu kursu ABŞ, Səudiyyə Ərəbistanı, BƏƏ və MDB ölkələri daxil olmaqla müxtəlif ölkələrdə tədris etmişdir.

   Qeydiyyat üçün sorğularınızı **academy@deloitte.az** ünvanına göndərin

   Link: https://www2.deloitte.com/az/az/pages/deloitte-academy/articles/maliyye-modellesdirmesi.html